# AZƏRBAYCAN RESPUBLİKASI
# MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
# F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
# ELMİ-METODİKA ŞÖBƏSİ




26 iyun – Azərbaycan Silahlı Qüvvələrinin yaranması günü münasibətilə

## Qürurumuz, güvənc yerimiz
(metodik vəsait)

**Bakı – 2015**

## Tərtibçidən:

26 iyun Silahlı Qüvvələrin yaranması günüdür. Bu gün müstəqil dövlətimizin əsas atributlarından biri olan ordumuzun bayramıdır. Hansıki igid əsgərləri ilə gecə-gündüz ərazi bütövlüyümüzün keşiyində durur.

Ordu deyiləndə ilk öncə göz önünə əsgərlərimiz gəlir. Bu günün əsgərlərini isə dünənin şagirdləri təşkil edir. Bunun üçün təhsil ocaqlarında, uşaq müəssisələrində, məktəblərdə hərbi vətənpərvərlik işinin təbliği güclü olmalıdır. Bu münasibətlə respublikanın bütün təhsil və mədəniyyət ocaqlarında, məktəblərdə, kitabxanalarda, muzeylərdə və s. yerlərdə möhtəşəm tədbirlər keçirilməlidir. Belə tədbirlərin bir neçəsinin F.Köçərli adına Respublika Uşaq kitabxanasında keçirilməsi nəzərdə tutulub. Orduda xidmətin, vətən qarşısında borcun nə demək olduğunu gənclərə təbliğ etmək üçün uşaq kitabxanası olaraq hazırladığımız vəsait də, dovlətçiliyin mühüm atributu sayılan milli ordumuzun yaranması günü münasibətilə yazılmışdır. Vəsaiti hazırlamaqda məqsədimiz oxucularımızın hərbi vətənpərvərlik hisslərini gücləndirmək, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski kimi generallarımızın döyüş meydanlarındakı şücaətlərini, artilleriya nəzəriyəsinə gətirdiyi yenilikləri təbliğ etmək, hələdə iyirmi faiz torpaqlarımızın işğal altında olduğu bir vaxtda ordumuzun hər zaman əzmlə müharibəyə hazır olduğunu çatdırmaqdır. Çünki istənilən dövrdə ordu dövlətin varlığının qorunmasında, ərazi bütövlüyünün təmin edilməsində, regionda və dünyada söz sahibi olmasında müstəsna rol oynayıb.

**Bizim Ali Hərbi Məktəbimiz, Ali Hərbi Təyyarəçilik Məktəbimiz, Ali Hərbi Dənizçilik Məktəbimiz, Hərbi Akademiyamız, Təkmilləşdirmə kursları ordumuzu təmin etmək, lazım olan qüvvəlləri hazırlamaq üçün müxtəlif səviyyədə yaranmış kurslar-bunların hamısı artıq Azərbaycanda Silahlı Qüvvələrin böyük bir təhsil sisteminin tam yaranmasını nümayiş etdirir və bu davam edəcəkdir.**

**Ulu öndər Heydər Əliyev**

**Milli Ordu – Vətənin xilaskarı**

Tarixdən də görürük ki, güclü dövlətlərin hər biri, müstəqilliyinin ilk illərində müəyyən sınaqlarla qarşı-qarşıya qalırlar. Qədim və zəngin dövlətçilik tarixinə malik Azərbaycan zaman - zaman belə sınaqlar qarşısında qalsada, hər zaman özünün sərkərdələri, hərbi xadimlərinə güvənib. Əsrlərlə xalqımızı düşmənlər nə qədər əsarətdə saxlamaq istəsələr də, igid oğullarımızın sayəsində onun varlığına toxuna bilməyiblər. Bu anlamda Azərbaycan özünün hərbi xadimləri, hərbi uğurları ilə daim fəxr edib.

Hələ ötən əsrin əvvəllərində əldə olunan müstəqillik illərinə təsadüf edən ilk Milli Ordumuzun yaradılması keşməkeşli bir inkişaf yolu keçmişdir. Çünki, bu dövrdə milli ordunun yaradılması çox çətin idi. Orduya çağrılan müsəlmanlardan alınan can vergisi onları hərbi işlərdən uzaqlaşdırırdı. Azərbaycan Xalq Cümhuriyyəti zamanı 1918-ci ildə elan edilmiş hərbi vəziyyətdən sonra iyunun 26-sı Milli Ordunun yaradılması haqqında fərman verilir. Müsəlman korpusu Əlihaddə Azərbaycan korpusu adlandırılır. Çar Rusiyasının tanınmış generallarından olan Səməd bəy Mehmandarov hərbi nazir təyin edilir. Lakin həmin vaxt Cənubi Qafqazda azərbaycanlılara qarşı baş qaldırmış erməni təcavüzü yeni yaranmış dövləti təhlükə qarşısında qoyur. Bu çətin vaxtlarda isə təzə müstəqillik qazanmış bir ölkənin köməyinə qonşu dövlət Türkiyə çatır. Türkiyə ilə imzalanmış müqaviləyə əsasən Nuru paşanın komandanlığı altında Azərbaycana gələn “ İslam ordusu ” burada milli kadrların yetişməsində yaxından iştirak edir. Minlərlə azərbaycanlı silaha sarılıb torpaqlarımızın xilası naminə yaradılmış orduya qoşulur.1918-ci Azərbaycanın ərazi bütövlüyünün qorunmasında ordumuzun böyük xidmətləri olur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin azərbaycanlılara qarşı təcavüzünün qarşısını almaq üçün yaradılmış İlk Azərbaycan Milli Ordusunda general Səmədbəy Mehmandarov hərbi nazir, Yaponlarla müharibədə “Artileriya Allahı ” kimi tanınan Əliağa Şıxlinski isə nazir müavini təyin edilir. Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Həbibbəy Səlimov kimi generallardan formalaşmış bir ordu Azərbaycan ərazisini düşmən əlinə keçməsindən müdafiə edir. İlk addımlarını atan müstəqil respublika köməyə çağrılmış Nuru Paşanın başçılıq etdiyi Qafqaz

İslam Ordusunun səyi nəticəsində Bakını və ətraf qəzaları müdafiə edə bilir. Milli Ordu hissələri Azərbaycan hökumətinə qarşı qaldırılan qiyamların yatırılmasına kömək edir. Təəssüf ki, 23 ay ömrü olan Cümhuriyyətin süqutu ilə ilk müstəqil ordumuzun varlığına da son qoyulur. 1918-ci ildə müstəqillik əldə edən Cümhuriyyət 23 ay sonra Rusiyaya birləşdirilir. 70 ilə yaxın bir vaxtda Çar Rusiyasının əsarəti altında qalan dövlətimiz 1988-ci il məlum hadisələrdən sonra 20 faiz torpaqlarını itirsə də, 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, yenidən müstəqil ordusuna qovuşur. Onların davamçıları kimi bu günsə Hərbi Akademiya, Azərbaycan Ali Hərbi məktəbi, C. Naxçıvanski adına hərbi litsey öz fəaliyyətini göstərir. Məhz buna görə bu gün iyirmi faiz torpaqlarımızın işğal altında olduğu, bir milyondan artıq qaçqın və məcburi köçkünü olduğu bir zamanda Azərbaycanın bütün çətinliklərini aradan qaldırmağı bacaran qüdrətli ordusu var.

**Müasir dövr**

Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkəmiz hərbi sahədə ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas iş Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı problemlərlə müşayiət edilirdi. Ancaq tədricən müharibədəki məğlubiyyətlərin qarşısını almaq üçün ölkənin bütün imkanları milli ordu quruculuğuna səfərbər edildi. Məhz həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, ordudakı siyasiləşməyə son qoyuldu. Ulu öndər Heydər Əliyev hakimiyyəti dövründə həm prezident, həm də ali baş komandan olaraq, ordunun qüdrətli olmasına diqqəti yönəltdi. Bu gün regionun ən qüdrətli dövləti olan Azərbaycan da müstəqilliyinin ilk illərində olduğu kimi yenə də çox ciddi çətinliklərlə qarşılaşır. 1918-ci ildə olduğu kimi bu dəfə də himayədarlarının köməyinə arxalanan ermənilər cəbhə boyu hücuma keçirlər.Vahid komandanlığın olmaması isə vəziyyəti daha da çətinləşdirir. Ulu öndər Heydər Əliyev mövcud olan bütün silahlı birləşmələri vahid komandanlıq altında birləşdirdi. MDB qoşun hissələrində xidmət edən azərbaycanlı zabitlərin Vətənə qayıtmasını təmin edir. Bununla ordu quruculuğunda yeni mərhələnin əsası qoyulur.

Prezident Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olunur və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü kimi elan edilir. İmzalanmış atəşkəsdən sonra həmin illərdə Azərbaycan silahlı qüvvələrinə göstərilən qayğı nəticəsində ordunun maddi-texniki bazası gücləndirilir. Bu məqsədlə 1999-cu il fevralın 20-də hərbi akademiyanın yaradılması haqqında Heydər Əliyev tərəfindən sərəncam imzalanır. Azərbaycan

Silahlı qüvvələrinin kadr hazırlığının təkmilləşdirilməsi üçün Müdafiə Nazirliyi Sistemində fəaliyyət göstərən məktəblərin yaradılması üçün Heydər Əliyevin 20 avqust 2001-ci il tarixli fərmanına əsasən Azərbaycan Ali Hərbi məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbi yaradılır. 2002-ci ildə isə Silahlı Qüvvələrimizin müasir texnika ilə təmin edilməsinə kömək məqsədi ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım fondu fəaliyyətə başlayır. 1993-cü il noyabrın 2-də ulu öndərimiz Heydər Əliyevin xalqa müraciəti ölkə ictimaiyyətində gələcəyə olan inamı və hərbi vətənpərvərlik hisslərini ikiqat artırır. Onun bir çağırışı ilə minlərlə insan könüllü olaraq döyüşən orduya yollanır. Ulu öndərin orduya diqqəti əsgərlərin döyüş əzmini artırır. 1994-cü il yanvarın 4-də Füzuli-Beyləqan istiqamətində əks-hücuma keçən Azərbaycan Ordusu bir gün ərzində 20-dən çox yaşayış məntəqəsini düşməndən azad edir.Ordu haqqında informasiyaların təbliği işində təşkil edəcəyimiz sərgilərin birini ordu generalı olmuş general Əliağa Şıxlinskiyə həsr edə bilərik.Sərgidə onun vaxtılə dərc edimiş məktublarından, haqqında olan kitablardan və dövri mətbuat materiallarından, müxtəlif fotolarından istifadə edə bilərik. Sərginin nümunəsi aşağıdakı kimidir.

*На небе утреннем заря*
*Мне шлет кровавые рубины*
*Алмазы ночью для меня*
*Плетут по небу паутины*
*Я не хочу культурным быть!*
*Им не понять душою темной,*
*Что счастлив я, что я богат,*
*Бродяга дикий и бездомный…*

*Перевод: Алиага Шыхлинский*
*1906 год, село Царское.*

**Ə. Şıxlinski haqqında deyilmiş fikirlər**.

General Əliağa Şıxlinski ilə yaxından tanış olanlar, onun maraqlı söhbətlərinə qulaq asanlar bilərlər ki, bu təvazökar və səmimi insan nə qədər ağıllı və ibrətli bir şəxsdir.

filosof, alim **Heydər Hüseynov**



**Əliağa Şıxlinski:**

Ordu xalqın istinadgahıdır-bura xalqın ləyaqətli oğulları gəlməlidir.



*Birinci cərgədə soldan birinci Nigar xanım Şıxlinskaya, dördüncü General Əliağa Şıxlinski, 1912-ci il Çarskoe-Selo şəhəri.*

Əlbəttə, Azərbaycan dövləti humanizm prinsiplərini hər şeydən üstün tutur və əgər hərbi əməliyyatlar başlasa əsas hədəf işğalçı qüvvələr olacaq. O gün isə uzaqda deyil.

**Keçiriləcək tədbirlər.**

1998-ci ildən etibarən respublikamızda prezident Heydər Əliyevin qərarı ilə Silahlı Qüvvələr günü kimi qeyd edilən 26 iyun bütövlükdə Azərbaycan xalqının bayramıdır desək yanılmarıq. Çünki millətin, dövlətçiliyin, ölkəmizin müasir həyatında, gələcəyində ordusunun rolu böyükdür. Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyatı əhəmiyyətli məsələ kimi baxıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlık hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Müstəqil Azərbaycan dövlətinin qorunub saxlanılması, onun tərəqqisi naminə gələcəyin qurucuları olan bugünkü nəslin əsl vətəndaş kimi yetişməsində uşaq kitabxanalarının da öz rolu var. Bu gün əsasını dünən məktəb partalarında oturan şagirdlərimizdən təşkil edilən ordumuzun sabahkı gənclərinin tərbiyəsində kitabxanaların rolu əvəzsizdir. Bir uşaq müəssiəsi olaraq F.Köçərli adına Respublika Uşaq kitabxanasında oxucularla iş zamanı uşaqlara vətənə sevgi, dövlətə sadiqlik, Konstitusiya və qanunlarımıza hörmət, dövlət rəmzlərinə, bayrağımıza hörmət, Hərbi anda ehtiram hissləri aşılanması əsas yer tutur. Gənclərə hərbi işin sevdirilməsi,hərbi-vətənpərvərlik hisslərinin gücləndirilməsi vacib məsələlərdəndir. Bunun üçün orduya xidmətin müqəddəs bir iş, böyük bir borc olduğunun onlara təbliğ etmək lazımdır. Xalqımızın tarixi keçmişini mükəmməl öyrənməyə səy göstərən məktəblilərə torpaqlarımızın bütövlüyü və toxunulmazlığı, azadlığı və müstəqilliyi yolunda daima keşikdə duran milli ordumuzun fədakarlıqlarından, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski kimi generallarımızın şücaətindən, qəhrəmancasına həlak olmuş şəhidlərimizin həyat və döyüş yollarından bəhs edən kitablarla tanış etmək, öz şərəfli ölümləri ilə ölümsüzlük zirvəsini fəth etmiş oğullarımızın qısa, lakin mənalı həyat yolları haqqında ətraflı məlumatlar vermək, gələcəyin qurucuları ilə hərbi vətənpərvərlik tərbiyəsinin aparılması işində böyük əhəmiyyət kəsb edir.

Hərbi vətənpərvərlik işinin aparılması üçün əxlaqi dəyərlərimizdən olan haqq, ədalətin təbliğinə də yer ayrılmalıdır. Burada uşaqlara dünyadakı bir çox problemlərin, müharibələrin, düşmənlərin haqsızlığının, ədalətsizliyinın ucbatından meydana gəldiyi haqqında danışa bilərik. Və biz hər birimiz öz vəzifəmizi yerinə yetirməklə başqalarına da nümunə ola bilərik. Beləliklə biz sülh və əmin-amanlıq hökm sürdüyü bir dünyada yaşayarıq. Dərin kökləri olan zəngin tarixə malik tariximizə aid kitablarla, əcdadlarımızın qoyub getdiyi xəzinəni öyrənmədən biz

kitabxanaçılar Azərbaycan və onun inkişaf yolları haqqında olan məlumatları böyüməkdə olan gənc nəslə çatdıra bilmərik. Bu məlumatlarla gənclərimizi öz tarixi ilə tanış etdikdə vətəni sevmək hissi onlarda daha da güclənər. Bu münasibətlə respublikanın bütün təhsil və mədəniyyət ocaqlarında, məktəblərdə, kitabxanalarda, muzeylərdə və s. yerlərdə möhtəşəm tədbirlərin keçirilməsi nəzərdə tutulub. Belə tədbirlərdən bir neçəsi də F.Köçərli adına Respublika Uşaq kitabxanasında keçiriləcəkdir. Tədbirlərin siyahısı genişdir. Məsələn, Azərbaycan Silahlı Qüvvələrinin yaranması ilə əlaqədar olaraq kitabxanada müxtəlif sərgilərin (rəsm sərgisi, kitab sərgisi), müsabiqələrin (rəsm, şeir, inşa müsabiqəsi), oxucu konfranslarının, ədəbi-bədii gecənin və s. keçirilməsi nəzərdə tutulmuşdur. Sərgiləri müxtəlif başlıqlar altında təşkil oluna bilər. Məsələn, "Ordu quruculuğunun çətin yolları", "Azərbaycan deyiləndə ayağa dur ki...", "Vətən sənə oğul deyir", "26- iyun Silahlı qüvvələr günüdür" və s.

Sərgilərin təşkilində isə Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordu haqqında söylədiyi aşağıdakı sitatlardan və kitablardan istifadə edə bilərik.

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

**Heydər Əliyev**

Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüdrətli edir.

**Heydər Əliyev**

Orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

**Heydər Əliyev**

Dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır.

**Heydər Əliyev**

Orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar.

**Heydər Əliyev**

Azərbaycan ordusu artıq formalaşıb, qurulub və dövlətçiliyimizi, dövlətimizin torpaqlarını, ərazisini, müstəqilliyini qorumağa qadirdir.

**Heydər Əliyev**

Bizim ordumuz daha da güclü, daha da inamlı olmalıdır.

**İlham Əliyev**

Mənim fəaliyyətimin əsas istiqamətlərindən biri də, ordunu gücləndirməkdən, onun maddi-texniki bazasını möhkəmləndirməkdən ibarətdir.

**İlham Əliyev**

Daim orduya qayğı göstərməliyik, diqqət göstərməliyik, ordumuzu gücləndirməliyik.

**İlham Əliyev**

Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Amma istəyirik ki, ordumuz daha da güclü olsun. Orduda xidmət edən zabitlərin, əsgərlərin şəraiti daha yaxşı olsun.

**İlham Əliyev**






















Bu gün kitabxana hərbi-vətənpərvərlik anlayışını oxuculara necə çatdırmalıdır?
İlk növbədə uşaq və yeniyetmələrdə müharibənin nə demək olduğu ilə bağlı təsəvvür yaratmaq məqsədilə kitabxanada sərgi təşkil olunmalıdır. Sərgidə kitab, qəzet və jurnal məqalələri ilə yanaşı hərbi-vətənpərvərlik mövzusuna həsr olunmuş şəkillər və foto şəkillər də nümayiş oluna bilər. Sərginin yanında ədəbiyyat siyahısı və kartoteka qutusu qoymaq olar. Sərgi aşağıdakı başlıqlar altında təşkil oluna bilər: "Tariximizin şanlı səhifələri", "Heç kim və heç nə unudulmur" və s. Sərgidə görkəmli şəxsiyyətlərin vətənpərvərlik haqqında söylədikləri fikirlərdən, sitatlardan istifadə etmək sərgini daha da məzmunlu və dolğun edər".

**Söhbət:**

**Uşaq kitabxanalarında Azərbaycan Silahlı Qüvvələri günü münasibətilə oxucularla aparılan fərdi söhbətlərin, sərgilərin, icmalların əhəmiyyəti böyükdür.**Təşkil edilmiş *"Azərbaycan Milli Ordusunun yaranmasında Qafqaz İslam Ordusunun rolu"* başlıqlı söhbət zamanı gənclərimizə Silahlı Qüvvələrinin

yaranması və  Azərbaycan dövlətinin müstəqilliyinin qorunmasından,  Nuru paşanın başçılıq etdiyi türk ordusunun köməyindən danışa bilərik. Məlumdur ki, kitabxanada əsas cəlb edici vasitələrdən biri kitabdır. Milli Ordumuzun yaranması haqqında ədəbiyyat seçərkən çox diqqətli olmalıyıq. Məsələn: Mustafa Görüryılmazın ***"Türk Qafqaz İslam ordusu və ermənilər (1918) "*** adlı kitabı çox maraqlı məlumatlarla zəngindir. Gənclərin daha çox bədii ədəbiyyata üstünlük verdiyini nəzərə alaraq Qəhrəman Şükürlünün hərbi mövzuda yazılmış ***"Ataş "*** romanının icmalını məktəblərdə, kitabxanada oxucular arasında keçirə bilərik.Əsər Qarabağın döyüş tarixinin işıqlandırılması, torpaqlarımızın azadlığı uğrunda gedən şanlı döyüşlərdən bəhs edir, tariximizin bu gününü və dünənini gənc nəslə unutdurmamaq üçün əyani bir vasitədir. Ramiz Cəfərovun **"*Ləğv edilmiş tapşırıq*"** əsərinin yuxarı yaş qrupu oxucuları ilə icmalı məqsədəuyğundur. Kitab gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşmasında əvəzsiz vasitədir. Əsərdə yenicə formalaşmağa başlayan Milli Ordunun və eləcə də özünümüdafiə dəstələrinin mənfur erməni qəsbkarlarına qarşı mübarizəsindən bəhs edilir, torpaqlarımızın mənfur düşmənlərdən təmizlənməsində igid əsgərlərimizin göstərdiyi igidliklərdən söhbət açılır.

Kitabxanada həmçinin **" *Ordumuz uşaqların gözü ilə* "** mövzusunda rəsm müsabiqəsi də keçirmək olar:

Müsabiqə keçirilməzdən əvvəl sərginin keçirilməsi haqqında elanlar verilir. Müsabiqə təşkilatçısı müsabiqə haqqında məktəblərdə, uşaq müəssisələrində uşaqlara müsabiqənin mövzusu haqqında məlumat verir ki, onlar öz düşüncələrini çəkdikləri şəkillərdə əks etdirə bilsinlər.Təqdim edilən rəsm işləri əvvəlcədən nömrələnir, kitabxananın oxu zalında nəzərdə tutulan guşədə öz əksini tapır. Sonda münsiflər heyəti tərəfindən daha dolğun, səliqəli işlənmiş rəsm müəllifi mükafatlandırılır.




**Azərbaycan Respublikasına xidmət edirəm",** başlıqlı inşa müsabiqəsinin təşkili zamanı da kitabxanada müsabiqənin keçirilməsi haqqında elanlar ərazilərdəki məktəblərə və uşaq müəssisələrinə paylanır və kitabxananın internet səhifəsində yerləşdirilir. Müsabiqənin keçirilməsində məqsəd uşaqlara vətən borcunun nə olduğunu anlatmaqdır.  Müsabiqəyə iştirakçılar tərəfindən təqdim edilmiş inşalar oxunaraq seçilir. Qalib seçilmiş oxucuya  mükafat verilir.

Torpaqlarımızın iyirmi faizinin işğal altında olduğu şəraitdə kitabxanalarda oxucular arasında hərbi vətənpərvərlik hisslərinin daha da gücləndirilməsi üçün bu

mövzuda ordu, əsgər haqqında yazılmış şeirlərin ucadan oxusunu keçirə bilərik. Gənclərdə qəhrəmanlıq hissinin gücləndirilməsi üçün qəhrəmanlıq dastanlarımızdan “Koroğlu”, “Kitabi Dədə Qorqud” dastanının motivlərindən istifadə edə bilərik. Koroğlu dastanı xalqımızın qəhrəmanlıq nümunəsi kimi vətəni yadellilərdən qorumaq, torpağın bir qarışını belə işğalçılara verməmək kimi qəhrəmanlıq hisslərinin təbliği üçün əyani bir vasitədir.

Kitabxanada keçirilən tədbirlər zamanı Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordumuzun keçdiyi çətin və şərəfli yolda daha çox dövrün qadın yazarlarının, ziyalılarının ordu quruculuğu işində necə əlbir olmasından danışa bilərik. Azərbaycanın sevilən şəxsiyyətlərindən olan Məhəmməd Hadi Xalq Cümhuriyyətinin orqanı olan Azərbaycan qəzetində “Ey əsgər”, “Türk ordusuna”, “Azərbaycan Ordusuna”, “Əsgər şərqisi” adlı şeirləri ilə gəncləri orduya həvəsləndirirdi. Yazıçılarımız, şairlərimiz bu əsərlərlə anaları səsləyirdilər ki, vətənimizi, millətimizi qorumaq üçün oğullarını orduya yollasınlar. Qadın yazarlardan Şəfiqə Əfəndizadənin, Umugülsümün məqalə və şeirləri milli ordu quruculuğuna həsr edilirdi. Onlar xalqı əmin edirdilər ki, millətimizin istiqlalı yalnız möhkəm ordumuzun yaranmasındadır. Məhəmməd Hadinin çağırışlarının birində belə deyilirdi:

Damarında varsa əgər türk qanı,
Silahınla məhv edərək düşmanı.
Köksünü gər, saxla Azərbaycanı,
Haydı, kardaş sınırlara koşalım.

Müasir ədəbiyyatımızda da orduya gəncləri həvəsləndirmək üçün yetərincə belə nümunələr vardır. Məsələn:Məktəblilər arasında Zəlimxan Yaqubun “Ordum varsa, yurdum var” şeirinin ucadan oxusunu keçirmək məsləhətdir.

Mənə ordu gərəkdir, xəstəyə dərman kimi,
Mənə ordu gərəkdir, nəfəs kimi, can kimi,
Mənə ordu gərəkdir sarsılmaz cahan kimi,
Ordum varsa yurdum var.
Ordum yoxsa, yurdum yox.

Rafiq Yusifoğlunun aşağı sinif şagirdləri üçün yazdığı 26 iyun Silahlı Qüvvələr gününə aid “Azərbaycan əsgəri ” şeiri də uşaqlar üçün çox maraqlıdır:

***Azərbaycan əsgəri***

Azərbaycan əsgəri
Canını əsirgəməz,
Vətən üçün son gilə
Qanını əsirgəməz.

Təzəcə süvar olub
O, zirehli bir ata.
Misri qılınc əlində
Dönübdür avtomata

Qəhrəmanlıq göstərib
Düşməni mat qoyar o.
Vətənə xor baxanın
Gözlərini oyar o.

Qəlbinə nur gətirən
Tardı, kamandı, sazdı.
Onun damarlarından
Axan Kürdü, Arazdı.

Döyüşdə şirə dönər
Sel kükrəyər qanında
Ədəb, ərkan gözləyər
Ağsaqqalın yanında.

Qeyrətini görəndə
Yağı qorxar, ah çəkər.
O, dağlara sığınıb,
Düşmənlərə dağ çəkər

Ona ruh verən eli
Qorumaq həvəsidi.
Babəkin, Koroğlunun
Həzinin nəvəsidi.

Azərbaycan əsgəri
Bu torpağı güldürər.
Bir əlində avtomat
Bir əliylə gül dərər

Vətən çörəyi ilə
Boya-başa yetibdir.
Bığ yerində elə bil
Bənövşələr bitibdir.

Hərbi-vətənpərvərlik hissinin təbliğindən söhbət düşmüşkən II Dünya Müharibəsinin iştırakçılarını da yaddan çıxartmamalıyıq. Çünki, bəşəriyyəti faşizm taunundan xilas edən bu nəslin nümayəndələri yüksək hörmətə, ehtirama layiqdirlər. Bu gün ölkəmizdə müharibə getdiyi bir vaxtda vətənin azadlığı üçün çox şey öyrənəcəyimiz bir məktəbin, nəslin nümayəndələri kimi onlara çox ehtiyacımız var.Oxucuları hərb sahəsində çalışan şəxslərlə, müharibə iştirakçıları ilə yaxından tanış etmək üçün müharibə veteranları ilə keçirilən görüşlər çox əhəmiyyətlidir. Belə tədbirlərin təşkilinə F.Koçərli ad. Respublika Uşaq kitabxanasında xüsusi önəm verilir.

4 may 2015-ci ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanası R.Behbudov adına Mahnı Teatrında Alman Faşizmi üzərində qələbənin 70 illiyinə həsr olunmuş Rus Uşaq Ədəbiyyatı Həftəsində hərbi vətənpərvərlik işinin təbliği mövzusuna xüsusi diqqət yetirmiş, bu mövzuda bir sıra sərgilər təşkil etmişdir. Rus Uşaq Ədəbiyyatı Həftəsində kitabxanada müxtəlif başlıqlar altında rus uşaq ədəbiyyatlarının, uşaqların bu mövzu ilə bağlı hazırladıqları əl işlərinin sərgisi təşkil olunmuşdu. Tədbirdə Azərbaycanda fəaliyyət göstərən Rusiya İnformasiya və Mədəniyyət Mərkəzindən, ölkəmizdə fəaliyyət göstərən bir sıra mədəniyyət mərkəzinin nümayəndələri, Müharibə veteranları, Milli qəhrəmanlar, Nazirliyin nümayəndələri, uşaq yazarları, müxtəlif məktəb şagirdləri iştirak edirdi.

Uşaqlara vətəndaşlıq hissinin təbliğ formalarından biri də disputdur. Disputun sualları *Vətəni nə üçün sevmək lazımdır?, Siz böyüyəndə hansı sənəti seçəcəksiniz?,Ordu dedikdə nə başa düşürsünüz?, Vətəni nə üçün qorumaq lazımdır?, Vətəndaşlıq borcu nədir? və s.* suallar uşaqların hərb sahəsinə marağının səmərəliliyini artırır. Kiçik yaşlı oxucuların vətənpərvərlik tərbiyəsi ailədə, tərbiyə müəssisələrində və orta ümumtəhsil məktəblərində uşaq və yeniyetmələrə verilən vahid tərbiyə işinin vacib tərkib hissəsidir. Bu məqsədlə kiçik yaşlı oxucularımızla onların tarixi yaddaşını formalaşdırmaq üçün "*Ordu nə deməkdir*" adlı söhbət, sual-cavab gecəsi keçirmək olar. Aşağıdakı sualları təqdim edirik:

1)Ordu sizin üçün nə deməkdir?
☺ ______________________________

2) 26 iyun tarixi nə günüdür?
☺______________________________

3) Vətən borcu dedikdə nə başa düşürsünüz?
☺______________________________

4) Böyüyəndə əsgər getmək istəyirsinizmi?
a) bəli
b) xeyir

5) Əsgər getmək niyə görə lazımdır?
☺______________________________

6) Hərbçi olsanız hansı qoşun növündə xidmət etmək istərdiniz?
a) Hərbi Hava Qüvvələri
b) Quru Qoşunları
c) Hərbi Dəniz Donanması

7) Vətən uqrunda şəhid olan hansı qəhrəmanlarımızı tanıyırsınız?

8) Hərbi biliklərinizi necə artırırsınız?
☺ _____________________________

9) Kitabxanada bunun üçün hansı xidmətlərin olmasını istərdiniz?
☺___________________________________________________

Ordumuzun Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz donanmasından ibarət olması, Azərbaycan ordusunun cənubi Qafqazda ən güclü və hazırlıqlı ordu hesab edilməsindən xəbər verir.

Yeri gəlmişkən, xatırlatmaq yerinə düşər ki, Azərbaycan xalqının dahi lideri, ulu öndərimiz Heydər Əliyev hələ Sovet İttifaqı dönəmində yüksək hərbi təhsil almış milli zabit kadrlarının yetişdirilməsinə xüsusi əhəmiyyət vermişdir. Məhz onun ciddi səyləri nəticəsində 1971-ci ildə gəncləri ali hərbi məktəblərə hazırlayan ilk təhsil ocağı olan ixtisaslaşdırılmış hərbi internat məktəbi açıldı. Bir müddət sonra bura Cəmşid Naxçıvanskinin adı verildi. Bundan başqa, həmin dövrdə Bakıda iki ali hərbi məktəb — Ali Ümumqoşun Komandirləri və Hərbi Dəniz Donanmasının Ali Hərbi Dənizçilik məktəbləri olsa da, burada təhsil alan 300 nəfərdən yalnız 3-5 nəfəri azərbaycanlı idi. Bu ali məktəblərdə təhsil alanlar əsasən Rusiya, Belarus, Ukrayna, Gürcüstan, Ermənistan və digər ölkələrdən gəlmiş gənclər idi. Azərbaycanlı gənclərin hərbi vətənpərvərlik ruhunda yetişmələri üçün orta məktəblərdə ibtidai hərbi hazırlıq fənləri tədris olundu. Hər il 800-900 nəfər azərbaycanlı gənc Rusiyanın və digər postsovet ölkələrinin nüfuzlu ali hərbi məktəblərində təhsil almağa göndərildi. Bu gün Sovet dövründə yetişmiş yüksək biliyə və təcrübəyə malik həmin kadrlar, eyni zamanda Azərbaycan Ali Hərbi Məktəbinin yetişdirdiyi komandir heyəti ordumuzun daha da güclənməsində öz səylərini əsirgəmirlər. Məhz buna görə Azərbaycan Milli Ordusu Qafqazda ən müasir ordu hesab olunaraq Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından təşkil edilib. Bu gün ölkəmizdə bu qoşun növləri rəqiblə effektiv mübarizə aparmağa qadirdirlər. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin hərbi imkanları da ildən-ilə genişlənir.

26 iyun Azərbaycan Silahlı Qüvvələrinin yaranması günü ilə bağlı kitabxanada keçirilməsi nəzərdə tutulan kütləvi tədbirlərdən danışarkən tövsiyə xarakterli icmalların keçirilməsi də məqsədə uyğundur. Əsası 1918-ci ildə qoyulmuş Azərbaycan Silahlı qüvvələri 1993-cü ildən bu günə qədər böyük əzmkarlıqla xalqın keşiyində durur. Müharibə vəziyyətində olan Azərbaycan öz ordusunu günün tələbinə uyğun inkişaf etdirir. İndi hər an Azərbaycan ordusu torpaqlarımızı yağı düşməndən azad etmək əzminə malikdir. Ali Baş Komandan, Ulu Öndərimizin davamçısı İlham Əliyevin H. Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin buraxılış mərasimlərində iştirakı ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunmuşdu. 2001-ci ildə Ali Hərbi Məktəbin buraxılış mərasimində Ali Baş Komandan H. Əliyev və ölkəmizdə səfərdə olan Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərərgah rəisi, Ordu Generalı Hüseyn Kıvrıkoğlu mərasimdə iştirak etmək üçün gəlmişdilər. Həmin gün türk ulduzları eskadriliyasının Bakı səmalarında sülh məramlı uçuşları haqqında Heydər Əliyev

demişdir: Biz dünən də, bu gün də Türkiyənin nə qədər qüdrətli, peşəkar, nə qədər inkişaf etmiş Silahlı Qüvvələrinin mövcud olduğunun şahidiyik. Mən "Türk ulduzları"nın Azərbaycana gəlməsi münasibətilə bütün xalqımızın adından, dövlətimizin adından minnətdarlığımı bildirirəm və bəyan edirəm ki, mən onları öz şəxsi hədiyyələrimlə təltif edirəm.

***Ədəbi-bədii gecə***

Kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də ədəbi bədii gecədir. Silahlı Qüvvələrin yaranması gününə həsr edilmiş ədəbi-bədii gecəni 2 hissədən ibarət hazırlaya bilərik. Ssenarinin birinci hissəsində Silahlı Qüvvələrin yaranması haqqında müxtəlif çıxışlar dinlənir. İkinci hissədə isə mövzuyla bağlı şeirlər, musiqili çıxışlar, kompozisiyalar hazırlamaq daha maraqlı olar.

Sizə Silahlı Qüvvələr günü münasibətilə hazırlanmış "Vətənin keşiyində" başlıqlı tədbirin ssenarisni təqdim edirik.

**Səhnədə Ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın ordu quruculuğu və inkişafı yolunda gördüyü işlərdən bəhs edən plakatlar, ordu haqqında yazılmış şeirlərdən parçalar, sitatlar asılır. İlk öncə Ordu quruculuğumuzun tarixindən bəhs edən slayd nümayiş edilir. Slaydda Zəminə Xınalının Hərbi məktəblərin banisi adlı kitabında verilmiş Hərbi məktəblərimiz haqqında materiallardan istifadə edə bilərik.**

***Azərbaycan Ali Hərbi Məktəbi;***

*Respublikanın müstəqilliyinin qorunması, güclü ordunun, müasir hərbi təhsil sisteminin yaradılması da cənab Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Ordumuzda vahid rəhbərlik və mərkəzçilik prinsiplərinin bərqərar olunması, onun şəxsi heyətinin döyüş və mənəvi ruhunun yüksəldilməsi üçün Heydər Əliyevin gördüyü işlər hərb tariximizin ən parlaq səhifələrini təşkil edir. Ordumuzun bütün şəxsi heyəti kimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin şəxsi heyəti də Heydər Əliyevin gündəlik diqqət və qayğısını daim öz üzərində hiss edirdi. O, bu məktəbə ordumuzun gələcək simasını müəyyən edən bir baza kimi baxır,onunla fəxr edirdi. Məktəbin birirnci və ikinci buraxılışlarında şəxsən özü bu təhsil ocağına təşrif buyurmuş, məktəbin fəaliyyətindən qürur hissi keçirdiyini bildirmişdir. Heydər Əliyev Azərbaycanın müstəqilliyini onun hər bir vətəndaşının mənəvi sərvətinə çevirmiş nadir şəxsiyyət idi. Bu günlərdə ən böyük təsəllimiz odur ki,cənab Heydər Əliyevin böyük məharətlə idarə etdiyi dövlətçilik sükanı bu gün etibarlı əllərdədir. Heydər Əliyevin daxili və xarici siyasət kursu dövlətimizin gələcək inkişafının ən vacib strateji istiqamətlərini birdəfəlik müəyyən etmişdir. Ulu Öndər Heydər Əliyev Silahlı Qüvvələrin şəxsi heyəti ilə görüşləri zamanı öz çıxışlarında belə demişdir:*

*- Azərbaycanın güclü ordusu bu gün də, sabah da, on il də, yüz il də bundan sonra lazımdır. Bunun üçün Azərbaycan ordusunun, Silahlı Qüvvələrinin qüdrəti hər gün artmaqdadır. Onun qüdrəti təkcə qolun əzələlərindəki güc deyildir. Müasir texnika, texnologiya, silahlar, döyüş qaydaları, müharibə nəticəsində meydana çıxmış hərb elmi – bunların hamısını həm bizim Ali Hərbi Məktəblərdə öyrənmək lazımdır, həm də hər bir zabit hər gün özü öyrənməlidir, biliyini, hərbi elmini artırmalıdır. Ulu Öndərimiz güclü ordu və ixtisaslı zabit kadrları yetişdirən hərbi məktəbləri yaratdı və bununla da hər zaman fəxr edirdi. Ulu Öndər, dahi sərkərdə Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinin bütün kollektivi, şəxsi heyəti bu yüksək, şərəfli adla fəxr edirik. Heydər Əliyev dühası əbədi, həmişəyaşar dühadır. Onun parlaq xatirəsi daim qəlbimizdə yaşayacaqdır.*

**General-mayor Heydər Piriyev H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi**

## Heydər Əliyev adına Azərbaycan Ali hərbi Məktəbi
## (Məktəb marşı)

**Sözləri: Zəminə Xınalının,**
**Musiqisi: Mahir Əsgərovundur.**

Birləşin, azəri-türk övladları,
Düşmənin ürəyi,həm qəlbi yansın.
Bütün yer üzündə sülhün sədası,
Azadlıq, ədalət qoy zəfər çalsın.
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.
Hərbin sirlərini öyrənəcəksən,
Parlayan, sönməyən bir gələcəksən.
Hər zaman dillərdə sən gəzəcəksən,
Elimi-obamı bəzəyəcəksən.
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.
Vətən harayına neçə oğullar,
İgid mərd zabitlər yetirdin özün.
Xoş müjdə,qələbə,sülh sorağını,
Zəfər bayrağını gətir sən özün!
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.
Müqəddəs şəhidlərin ölməz ruhunu,
Tarix yaddaşında yaşadacaqsan.
Üç rəngli bayrağı mavi səmada,
Ən yüksək zirvəyə ucaldacaqsan.
Müstəqil dövlətimin hərbi məktəbi,

Heydər Əliyev adına hərbi məktəbi.

**Ali Baş Komandan Heydər Əliyevin 7 oktyabr 1996-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının V ildönümü münasibətilə keçirilən yığıncaqdakı çıxışından:** - *Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir. Bu gün mən bütün vətəndaşlara bildirmək istəyirəm ki, ordunun möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün dövlət tərəfindən, Azərbaycan Prezidenti tərəfindən lazımi qayğı və diqqət göstərilir və bundan sonra da göstəriləcəkdir. Bir prezident kimi, Ali Baş Komandan kimi mən bunu özümün əsas vəzifəm hesab edirəm. Eyni zamanda, bütün hakimiyyət orqanlarını orduya qayğı göstərməyə dəvət edirəm. Bir daha qeyd edirəm, ordu dövlətin, xalqın, millətin qayğısı ilə əhatə olunmalıdır. Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır. Ona görə də biz heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifəmiz kimi dərk etməliyik. Hesab edirəm ki, Azərbaycan Silahlı Qüvvələri, Milli Ordumuz bundan sonra da qarşısında duran vəzifələri layiqincə yerinə yetirəcəkdir. Azərbaycanın dövlət müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşə, vuruşa daim hazır olacaqdır. Mən əminəm ki, bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır. Xalqımızın, dövlətimizin ən ümdə məqsədi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, yerlərindən, yurdlarından didərgin düşmüş vətəndaşlarımızın evlərinə qayıtmasını təmin etməkdir. Biz bu yolda sülh addımlarımızı bundan sonra da davam etdirəcəyik, buna nail olmaga çalışacağıq. Eyni zamanda xalqımız, ordumuz bilməlidir ki, biz torpaqlarımızın bir qarışını belə heç kimə güzəşt edə bilmərik. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq.*

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA ALİ HƏRBİ DƏNİZ TƏHSİLİ SİSTEMİNİN YARADICISIDIR.

Tarixin həlledici sahələrindən birini yaşayan Azərbaycan xalqı inkişafının bütün sahələrində olduğu kimi, ordu quruculuğu prosesində də öz inkişaf mərhələlərini keçməkdədir. Bu sahədə olan fəaliyyəti tənzimləmək üçün 1991-ci ilin oktyabr ayının 9-da o dövrdəki Azərbaycan Ali Soveti tərəfindən ilk hüquqi normativ qanun –“Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında” qanun qəbul edildi. Ordu quruculuğunun bugünkü inkişaf mərhələsi 1993-cü ilin noyabr ayında mərhum prezidentimiz Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətindən sonra başlamış və indiki öz yüksək səviyyəsinə çatmışdır. Respublika prezidenti Heydər Əliyev nəinki orduda hərbi vətənpərvərlik ruhunun artırılması işinə rəhbərlik edirdi, hətta özü də bilavasitə bu işdə fəal iştirak etməyə başladı. Ali Baş

Komandan Heydər Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələri quruculuğunun bu istiqamətində, hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, aparılan işlərin hərbi-siyasi nəticəsi kimi ordu daxilində dərinləşməkdə olan böhranın qarşısını aldı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı. Ordu quruculuğunda aparılan kompleks iş- 103 lərin nəticəsi olaraq Azərbaycan Respublikasının qanunvericilik orqanı olan Milli Məclisin 18 noyabr 1993- cü il tarixli iclasında müdafiə və təhlükəsizlik məsələsi müzakirə edildi və bu məsələ üzrə Milli Məclisin daimi komissiyasının yaradılması haqda qərar qəbul edildi. Azərbaycan Respublikası Silahlı Qüvvələrində kadr probleminin aradan qaldırılması üçün keçmiş SSRİ-nin müxtəlif regionlarında yerləşmiş MDB qoşun hissələrində xidmət edən azərabycanlı zabitlərin vətənə qayıtmasına xüsusi diqqət və qayğı göstərildi. Bununla bərabər Milli ordunun peşəkar zabit kadrları ilə təmin olunması üçün hərbi təhsilin inkişafına xüsusi diqqət artırıldı. Ümummilli lider Heydər Əliyev döyüş bölgələrindəki görüşlərindən birində vaxtilə C.Naxçıvanski adına ixtisaslaşmış ibtidai hərbi liseydə təhsil almış və MDB-nin Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük hissə- sinin hələ də respublikaya qayıtmadığına öz təəssüfünü bildirərək qeyd edirdi ki, Azərbaycanın bu gün peşəkar hərbi qulluqçulara daha çox ehtiyacı var. Ona görə də Ali Baş Komandan respublikadan kənarda xidmət edən hərbi qulluqçuların vətənə qayıtması məsələsinin həllini Müdafiə Nazirliyi qarşısında əsas vəzifə kimi qoymuşdur. Bu gün Silahlı Qüvvələrdə gedən quruculuq işini təhlil etsək görərik ki, bacarıqlı və sağlam 104 zabit korpusunun böyük hissəsi C.Naxçıvanski adına hərbi liseyin məzunlarıdır. Bu gün Azərbaycan Silahlı Qüvələrinə zabit kadrı hazırlayan bütün hərbi təhsil ocaqları Ulu Öndərin yaratdığı hərbi təhsil sistemləri şəbəkəsidir. Zabit kadrlarının hazırlanması prosesinin tam mənada həyata keçirilməsi, o cümlədən Azərbaycanda hərbi dənizçiliyin inkişaf etdirilməsi ölkəmizin müdafiə doktrinasının tərkib hissəsi olmaqla daima Ali Baş Komandanın diqqət mərkəzindədir. Azərbaycan ali hərbi məktəblərinin ilk buraxılışı mərasimində iştirak edən Ali Baş Komandan öz çıxışında bildirmişdir: ”Azərbaycan ordusunun peşəkarlıq səviyyəsini qaldırmaq ən başlıca vəzifədir”... Azərbaycan ordusunda xidmət etmək, zabit olmaq, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin, Azərbaycan torpaqlarının keşiyində durmaq məsuliyyətli olduğu qədər də şərəfli bir işdir. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Hərbi Dəniz Qüvvələrinin qarşısında Xəzərdə dövlətin maraqlarını təmin etmək və onun su sərhədlərinin toxunulmazlığını təmin etmək vəzifəsi qoyulmuşdur. Belə vəzifənin öhdəsindən gəlmək üçün Hərbi Dənizçilik Məktəbinin rəhbərliyi qardaş türk ordusunun mütəxəssislərinin təcrübələrindən bəhrələnərək, müasir tələblərə cavab verməyə qadir olan, yüksək ixtisaslı kadrların hazırlanması 105 naminə, nizam-intizama ciddi riayət etməklə, tədris prosesinin yüksək səviyyədə qurulmasına nail

olmağa çalışır. 1939-cu ildə əsası qoyulmuş Ali Hərbi Dənizçilik Məktəbinin bazasında formalaşan bu təhsil ocağı 4 pilləli hazırlıq sistemini tətbiq etməklə hazırladığı kadrlar nəinki Xəzər akvatoriyasında, hətta dünya okeanlarında qarşıya qoyulmuş istənilən tapşırığı yerinə yetirirlər. 2004-cü ilin iyun ayının 25-də Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ilk dəfə olaraq AAHD Məktəbində gənc leytenantların birinci buraxılış mərasimində iştirak etmiş və demişdir: ”Mən çox şadam ki, Azərbaycan ordusu güclənir, inkişaf edir. Ordunun madditexniki bazası güclənir, şəxsi heyətin hazırlıq, peşəkarlıq səviyyəsi yüksəlir. Bu istiqamətdə gələcəkdə də addımlar atılacaqdır”.

1-ci dərəcəli kapitan NURULLA ƏLIYEV, Azərbaycan
Ali Hərbi Dənizçilik Məktəbinin rəisi

**Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi**
**(Məktəb marşı)**

**Sözləri: Zəminə Xınalının,**
**Musiqisi: Azər Dadaşovundur.**

Ana vətənim üçün,
Pak vicdanlı oğullar,
Qəhrəmanlar yetirir,
Hərbi Dəniz Məktəbi.

Anam Azərbaycanın,
Mətin bir əsgəri tək,
Keşiyində dayanıb,
Hərbi Dəniz Məktəbi.

Tarixlər yaddaşında,
Silinməz izlər qoyur,
Günəşdən ilham alır,
Hərbi Dəniz Məktəbi.

Xəzərin sahilində,
Yurd salıb, yuva salıb.
Ulduz kimi parlayır,
Hərbi Dəniz Məktəbi.
Üç rəngli bayrağımız,
Vüqarla dalğalandı.
Saf sularda yol aldı,
Hərbi Dəniz Məktəbi

## MÜDRİK TARİXİ ŞƏXSİYYƏT

XX əsrdə Azərbaycanın öz dövlət müstəqilliyini bərqərar etməsi xalqımızın çoxəsrlik tarixində qazandığı ən böyük və zəngin nailiyyətidir. 80-ci illərin sonlarından etibarən baş verən məlum tarixi hadisələr nəhayət SSRİ-nin dağılmasına gətirib çıxartdı. Belə bir şəraitdə Azərbaycan digər MDB Respublikaları kimi öz müstəqilliyini elan etdi. 1991-ci il noyabrın 18-də qəbul olunmuş müstəqillik haqqında Konstitusiya aktı ilə Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi. Lakin XX əsrin əvvəllərində qurularaq cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq elə həmin əsrin sonunda müstəqilliyini elan etmiş Azərbaycan Respublikası öz istiqlalını bu gün də qoruyub saxlayır. Bu müstəqilliyin ideoloji memarı və təminatşısı, ötən əsrin və bütün zəmanəmizin uzaqgörən dahi şəxsiyyəti Heydər Əliyevdir. Heydər Əliyevin yarım əsrdən çox bir dövrü əhatə edən bütün fəaliyyəti milli özünüdərkin,milli şüurun,milli ruhun yüksəlməsinə xidmət etmiş, Azərbaycan xalqının müstəqilliyinə inamlı yol açmışdır. Tarix göstərir ki, dövlətin normal idarə olunmasında və dayanıqlı yaşamasında şəxsiyyətin rolu əvəzsizdir. Belə bir məşhur deyim var:Zamanın nəbzini tuta bilən şəxsiyyətlərə “Müdrik şəxsiyyət”, lazım olan anda, lazım olan yerdə olmağı bacaran şəxsiyyətlərə “Tarixi şəxsiyyət” deyirlər. Heydər Əliyevin həyatına nəzər salsaq dərhal deyərik ki, o, “Müdrik – tarixi şəxsiyyət”dir. Eyni zamanda hər bir xalqın tarixi nailiyyət qazanması üçün iki vacib şərt mövcuddur: -tarixi şəxs və tarixi şəxsiyyət. Bu iki amil üst-üstə düşərsə xalq bundan fayda görər. Tanrı 1993-cü ildə belə bir tale yüklü məsuliyyətli şəxsi – Heydər Əliyevi müstəqil Azərbaycana qismət etdi. Əgər 1993-cü ilin 15 iyun Milli Qurtuluş günü olmasaydı, yəni Heydər Əliyev xalqın iradəsi ilə hakimiyyətə qayıtmasaydı həmin tarixi şans çox güman ki, əldən çıxacaqdı. Bu gün Azərbaycanın tarixi şansını reallığa çevirən, xalqın çoxəsrlik arzu və istəyini bütün dünyaya bəyan edən Heydər Əliyev dühası olmuşdur. Ulu Atatürkün dili ilə desək: “Ən böyük şəxsiyyətlər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığı və xəşbəxtliyinin qorunması yolunda həyatını verən insandır”. Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir. Heydər Əliyev kimi müdrik, tarixi şəxsiyyətlər zamanın gur səsinin əks-sədası kimi doğulur və zaman qarşısında öz missiyasını həyata keçirirlər. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, tarixə bugünkü dəyişikliklərin fundamental yekunu kimi yalnız Azərbaycan dövlətçiliyi düşəcək, zamanın silinməz yaddaşında isə müstəqil və qüdrətli Azərbaycan dövlətinin yaranıb, möhkəmlənməsində Heydər Əliyevin əvəzsiz, müqəddəs xidmətləri qalacaqdır. Bütün sahələrdə olduğu kimi ölkəmizin silahlı ordu quruculuğu da əbədi liderimiz Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. Mənsub olduğumuz Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi (AAHTM) Ulu Öndərimizin adı ilə bağlıdır. Məhz buna görə də AAHTM

professor müəllim heyəti bu məsuliyyəti dərindən dərk edir və bütün səy və bacarığını hər an artırır. Azərbaycanın uğur rəmzi olan Heydər Əliyev elə əzəmətli bir zirvədir ki, o, yer kürəsinin istənilən bir guşəsindən aydın görsənir. Biz isə çox xoşbəxt insanlarıq ki, doğma Azərbaycanımızın ən yeni tarixinin canlı şahidləri və iştirakçısı olmuşuq. Heydər Əliyev azərbaycanlı olması ilə fəxr etdiyi üçün biz də, hər bir azərbaycanlı da, onunla fəxr edirik.

polkovnik COŞQUN AĞAMALIYEV, Azərbaycan Ali Hərbi
Təyyarəçilik Məktəbinin rəisi

**Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi**
**(Məktəb marşı)**

**Sözləri: Zəminə Xınalının,**
**Musiqisi:Yusif Axundzadənindir.**

Çəkilsin göylərdən qara buludlar,
Günəş şəfəq saçsın yollarınıza,
Öyünür xalqımız sənin adınla,
Sirli bir dünyasan,adın gözəldi.
Yurdumun fəxrisən, coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik Məktəbi.

Məramın sülh olsun,səadət olsun,
Düşmən yanar olsun,tanrım qorusun!
Uzaq keçmişlərdən gəlir sorağı,
Şahinlər yuvası,qeyrət ocağı.
Yurdumun fəxrisən,coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik Məktəbi.

Azəri yurdunun türk övladının,
Müqəddəs beşiyi sən olacaqsan.
Tarixin əbədi yaddaşlarında,
Hər zaman, hər vaxtı yaşayacaqsan.
Yurdumun fəxrisən,coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik Məktəbi.

*Səhnənin sağ tərəfində Ulu öndər Heydər Əliyevin portreti, sol tərəfində isə Azərbaycan bayrağı asılır. Səhnədə 26 iyun Silahlı qüvvələr günündən bəhs edən sərgilər təşkil edilir. Səhnənin divarını bu mövzuya həsr edilmiş fotoşəkillər, Mübariz İbrahimovun şəkli vurulur.*

**I Aparıcı:** Bu gün adı dillər əzbəri olan, haqqında kitablar, şeirlər, mahnılar yazılan, filmlər çəkilən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun yüksəldiyi zirvə təkcə onun doğulub, boya-başa çatdığı kənddən deyil, Azərbaycanın və eləcə də bütün türk dünyasının hər yerindən görünür. Bu zirvəyə gedən yol isə elə həmin il erməni işğalçıları vətənimizin ayrılmaz hissəsi olan Qarabağ bölgəsində torpaq iddiası ilə münaqişə yaratmağa başlamışdı. Bəlkə də İlahi Mübarizi bu yağı düşmənlə gələcəkdə mübarizə aparacaq bir oğul kimi dünyaya gətirmişdi. Ailənin üçüncü övladı - sonbeşiyi, seyid nəvəsi idi Mübariz. O, uşaqlıqdan imanlı, bütün insani keyfiyyətlərə malik valideynləri – atası Ağakərim kişinin, anası Şamama xalanın nümunəvi tərbiyəsi ilə böyümüşdü. Vətənə, xalqa, haqqa, ədalətə son dərəcə sadiq ruhda tərbiyə alan Mübariz 2006-cı ildə Malik Piriyev adına Əliabad kənd orta məktəbini bitirmişdi. 2007-ci ildə isə ilk hərbi xidmətini Daxili İşlər Nazirliyinin daxili qoşunlarının xüsusi təyinatlı dəstəsində gizir rütbəsi ilə başa çatdırmışdı. Sonra isə erməni işğalçılarından intiqam almaq üçün könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrində xidmət etməkdən ötrü ərizə ilə müraciət edərək, vətənin müdafiəsinə gedib.

**II Aparıcı:** Vətəni vətən eyləyən, hər qarış torpağını göz bəbəyi kimi qoruyan onun igid, mərd oğullarıdır. Vətən belə oğulları ilə öyünür, fəxr edir.

*Uşaqlar səhnəyə çıxıb xalq şairi Qabilin "Ümid sənədir ancaq" şeirini söyləyirlər.*

Uzanır danışıqlar,
İmzalanır sənədlər.
Xəritədə aləmə
Göstərilir sərhədlər...
Səsimizə səs verir
Dünya başbilənləri
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!
Yellənsin sülh bayrağı,
Bu bayrağa kəm baxan,
Həm baxmayan,
Həm baxan
Bədgüman istəmirəm,
Sevindirsin milləti
Qoy sülhün şad xəbəri,
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri....

**II Aparıcı:** Heydər Əliyev deyirdi: - " Hər bir vətəndaş hiss etməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. Şah İsmayıl Xətai isə " Vətəni qoruyarsan vətən olar " – demişdir. Tarix yaddaşlarında dastanlara, rəvayətlərə, nağıllara dönmüş Həcər, Nigar, Tomris, Burla Xatun kimi tarixi qəhrəman qadınlarımızın adları bu gün, müstəqil dövlətimizin hərbi sahəsində xidmət edən Azərbaycan qadınları, qızlarına qol-qanad verir. Hərbi məktəblərdə vətən oğulları ilə yanaşı təhsil alan vətən qızlarımız da az deyil. Məzun oğullarımızla bərabər məzun leytenant qızlarımızın da sayı artmaqdadır.

**I Aparıcı:** Ümumilli lider Heydər Əliyevin sözlərinə görə XX əsrin sonunda dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının Silahlı Qüvvələri Məhz Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun layiqli varisidir.Azərbaycan rəhbərliyinin iradəsi, xalqımızın dönməzliyi sayəsində 1993-cü ilin noyabrından başlayaraq yenidən qurulmuş və mətinləşmiş Silahlı Qüvvələrimiz tariximizin şərəfli səhifələrinə xalqımızın ona göstərdiyi ümid və etimada layiq olduğunu sübut etmişdir.

**II Aparıcı:** İyirminci yüzilliyin əvvəllərində:
Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü. - deyən ustad şairimiz Hüseyn Cavidin istəyini əsrin sonlarında Ulu Öndərimiz Heydər Əliyev gerçəkləşdirib, gözüyaşlı ana-bacılarımızın da intizarına, fəryadına son qoydu. Azərbaycan vətəndaşlarının sabaha ünvanlanan ümidlərini özlərinə qaytardı. Elmin, səhiyyənin və mədəniyyətin böhranlı vəziyyətdən çıxarılması naminə gərəkli addımlar atdı. Ən başlıcası isə Milli ordumuzun döyüşkən ruhunu özünə qaytarmaq üçün onu yenidən qurmağa başladı. "Mən Azərbaycan milli ordusunun gücünə inanır, Azərbaycan əsgərinə güvənirəm" - deyən ümummilli liderimiz bu sahədə yetərincə işlər gördü.

**I Aparıcı:** Fitri istedada malik artileriya generalı əlli ildən çox ordu quruculuğunda xidmət edən dörd müharibənin şahidi, üç müharibənin iştirakçısı olmuş Əliağa Şıxlinskinin də Ordumuzun tarixində xüsusi rolu olmuşdur. ilk artileriya geniralımız ömrünün sonunadək xalqına əzmkarlıqla xidmət etmişdir.

**II Aparıcı:**Uşaqlar Azərbaycanın gələcəyidir. Özlərinə məxsus düşüncələri, xəyalları, bu xəyallarını gerçəkləşdirmək üçün fikirləri, ən sadəsi öz dilləri var. Hər şeyi öz gözləri ilə görür, öz sözləri ilə anladırlar. Bu

hisslərin hansının uşağın gələcək həyatında daha önəmli olacağı bir az da biz böyüklərdən asılıdır. Heç bir şeydən qorxmadan böyümələri, gələcəyinə ümid dolu gözlərlə baxa bilmələri üçün onlara sevgi və inam dolu həyatı vermək lazımdır. Üstündə gəzdikləri vətən torpağından güvənli yerin olmadığını anlatmaq lazımdır. Onu dünyaya gətirən anaya, böyüdüb boya-başa çatdıran ataya məhəbbəti kimi vətənə, torpağa, bayrağa sevgini də aşılamaq lazımdır. Uşaqlar sevməyi də, inanmağı da hamıdan yaxşı bacarırlar. Bu sevgi ilə yaşayanlar, bu sevgi ilə böyüyən uşaqlar

**I Aparıcı:** Vətən sevgisinin, Vətən bağlılığının, Vətən müqəddəsliyinin nə olduğunu həyatlarının ilk dönəmlərində öyrənirlər. Həyatlarının hər dönəmində Tanrının onlara bəxş etdiyi bu gözəl Vətənə sahib olmanın qürurunu yaşayırlar. Təbii ki, bu Vətəni qoruyub dünyanın hər cür təhlükəsindən uzaqda tutmağa çalışan, lazım gələrsə bunun üçün canlarından keçməyə hazır olan, şəhidlik və qazilik zirvəsinə yüksələn, Azərbaycan bayrağını başları üzərindən aşağı enməyə qoymayan əsgərlərə, ordumuza minnətdarlıq hissi ilə böyüyürlər. Azərbaycan əsgəri uşaqların gözündə elə bir nağıl qəhrəmanıdır ki – heç kəsdən qorxmayan, hamıdan güclü, düşməni məğlub edəcək cəsarətə malik bir qəhrəman. Hansı ki, onlar da gələcəyin gözəl günlərindən birində o qəhrəmanların yerində olacaqlarının xəyalını qururlar. Nağılın gerçək həyata çevriləcəyi o günün nə zaman gələcəyinə dair suallar verirlər.

*Oxucunun ifasında Mir Sabirin “ Milli Ordumuz ” şeiri səslənir:*

Ey ana yurdumun mərd cavanları,
Odlar Ölkəsinin qəhrəmanları,
Eşidin bunları, bilin bunları,
Silahı bərk tutsa Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

Var olsun dostumuz, arkadaşımız.
Bizim etibarlı türk qardaşımız,
Səslənsin ucadan zəfər marşımız,
Silahı bərk tutsa Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

Sevirik Vətəni gözümüz kimi,
Bir olsun işimiz sözümüz kimi,
Kim bizi qoruyar özümüz kimi?
Silahı bərk tutsa Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

Xeyir-dua verin analar siz də,
İftixar oyansın ürəyinizdə,
Elin qeyrəti var bu adi sözdə,
Silahı bərk tutsa Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

**I Aparıcı:**Onlar üçün hərbi xidmət təkcə vəzifə olmayacaq, həm də Vətən məhəbbətinin nümayişi olacaq. Bu vətəni ona layiq şəkildə qorumaq üçün böyüyəcəkləri günü gözləyirlər. Bu anaların da arzusudur. Onlar da əsgər anası olmağın fəxrini yaşayacaqları günün xəyalını qururlar.

**II Aparici:**Uşaqlar bu günsə, hələlik Vətəni böyüklərə əmanət ediblər. Gələcəyin əsgərləri bu günün əsgərlərinə güvənirlər. Onlarda bu güvəni yaradan qəhrəman isə Azərbaycan əsgəridir, onların xidmət etdikləri Azərbaycan ordusudur. Azərbaycan uşaqları Azərbaycan əsgəri olacaqları günün həyəcanı, sevinci, ümidi ilə böyüyürlər. Gəlin birlikdə bunun şahidi olaq. 6 yaşlı bir balamızın fikrincə, onun gözündə əsgər hamıdan güclüdür. Hətta öz sözlərini isbatlamağa çalışır. Bu dəfə atasının köməkliyi ilə.
Bütün uşaqlar kimi bu Elgiz balamızda atasının hamıdan güclü olduğunu düşünürmüş. Amma günlərin birində televizorda əsgər paltarında gördüyü heç tanımadığı gəncin sözlərindən sonra fikrini dəyişib: Gəlin görək Elgizin fikri niyə dəyişib axı?

*Əsgər marşı sədaları altında səhnəyə əsgər formasında uşaq gəlir:*

**Elgiz:** Mən hamıdan güclü atamı sayırdım.Atamsa həmişə deyir ki, bizim əsgərlərimiz hamıdan güclüdür. Televizorda əsgər verilişlərinə baxandan sonra mən də fikirləşirəm ki, əsgərlərimiz hamıdan güclüdür. Bilirsiniz niyə atam da güclüdür?Atam da əsgər olub axı. Ona görədə atam onda da güclü idi, indi də. Məndə böyüyəndə əsgər olacam. Hələ əsgər salamını da bilirəm. Axı evimizin qarşısından tez-tez hərbi hissə əməkdaşları işləyir. Məndə bu xidmətin əməkdaşlarını əsgər salamı ilə salamlamağı xoşlayıram:

**Elgiz**: Axı mən də böyüyəndə əsgər olacağam, uşaqları qoruyacağam.

***Oxucunun ifasında Əbülfət Zeynaloğlunun "Azərbaycan əsgəri" şeiri səslənir:***

Yeri inamla yeri,
Azərbaycan əsgəri!
Yolundan dönmə geri,
Azərbaycan əsgəri!
Yeri ayaq səsindən
Qoy səngərlər titrəsin
Koroğlu nərəsindən
Düşmənlərin büdrəsin.

Sən odlar diyarının
Od püskürən nəfəsi,
Sən ellər vüqarının
Son ümidi, həvəsi.
Çək qından qılıncını
Cəm et cəsarətini,
Topla əsgər gücünü
Göstər şücaətini.
Sən Babəklər yurdunun
Əyilməz övladısan,
Sən müstəqil ordunun
Şərəfisən, adısan.
Qoru öz torpağını
Caynağından zamanın
Uca tut bayrağını
Şanlı Azərbaycanın.

**Aparıcı:** Elgiz kimi həmyaşıdı Əmirin də Azərbaycan əsgərinə güvəni böyükdür. Onu ən çox narahat edən ekranlarda gördüyü döyüş səhnələridir. Bağçaya gedəndə, orda öyrəndiklərini gəlib evdə danışırdı. Bağçada Xocalı soyqırımından, Qarabağdan danışmışdılar. Ekranda da görmüşdü, Şəhidlər Xiyabanına gedəndə də qorxmuşdu.Tez-tez soruşurdu ki, ermənilər Bakıya gələ bilər? Atası onu başa saldı ki, düşmənlər bizi məhv edə bilməz, çünki bizim güclü ordumuz var. 5 yaşında aldığı əsgər paltarını əynindən çıxarmaq istəmirmiş. Əyninə olmadıqda kiçik qardaşına əmanət edib. “Doğruçu” əsgər olmaq üçün böyüməsini gözləyir:

**Əmir:** Mən də böyüyəndə əsgər olacağam. Düşmənləri öldürüb torpaqlarımızı azad edəcəyəm. Amma atam deyir ki, mən böyüyənə qədər əsgərlərimiz erməniləri qovacaq. Biz də o qələbə gününün tez gəlməsini gözləyirik.

**Aparıcı:** Ülkərsə qız olduğu üçün əsgər ola bilməyəcəyini deyir. Lakin özlüyündə bu fikri rədd edir.

**Aparıcı:** Ülkərin ən çox xoşuna gələn əsgər ayaqqabılarıdır, baxın nəyə görə:

**Ülkər:** Əsgərlər ayaqqabılarını yerə basanda möhkəm səs çıxır. Düşmənlər o səsi eşidəndə qaçırlar.

**Aparıcı**: Ülkər əsgərləri çox sevir, indiyə qədər cəmi bir dəfə canlı əsgərlə söhbət edib.

**Ülkər**: Dayım əsgərdən gəlmişdi. Hamıya əsgərlikdən danışırdı.

Dayım deyirdi ki, bizim əsgərlərimiz heç kəsdən qorxmur. Düşmənlər bizim əsgərlərimizdən qorxurlar. Əsgərlərimiz qoymaz ki, ermənilər uşaqları öldürsün".

**Aparıcı:** Uşaqkən özünü güvəndə hiss etmək böyüməyin əsas şərtidir. Uşaqlara bu güvənli həyatı verən, onların düşməndən qorxu hissini aradan qaldıran, təhlükəsiz həyat yaşamalarına səbəb olan qüvvəyə - Azərbaycan əsgərinə sahib olduqları üçün şanslıdırlar. Torpağa ayaqlarını daha möhkəm basırlar. Sakit, təhlükəsiz həyat üzərində gəzdikləri bu torpağı qoruyacaq, Vətənə sevgiləri ilə, yalın əllə belə düşmənə qalib gələcək güc, cəsarət Azərbaycan əsgərinin ayaq səslərində gizlənir. Azərbaycan əsgərləri ayaqlarını yerə daha möhkəm basdıqca uşaqlar daha sakit uyuyur. Azərbaycan əsgərinin gözləri düşmənə nifrət hissi ilə alovlandıqca, uşaqlar həyata məhəbbətlə böyüyür. Azərbaycan əsgəri səngərdə əlində silah gecəni səhərədək yatmayanda uşaqların mışıltısı həzin nəğməyə çevrilir. Məktəbə getməyə hazırlaşan Çingiz Azərbaycan əsgərinin uşaqları qoruduğunu deyir. Sözlərindən aydın olur ki, əsgərlər olmasa uşaqlar rahatlıqla oynaya, gəzə, böyüyə bilməzlər.

**Çingiz:** Görün, ermənilər nə qədər uşaq öldürüb. Onda bizim əsgərlərimiz yox idi. İndi əsgərlərimiz var, ermənilər uşaqları öldürə bilməz.

**Aparıcı:** Onun üçün hələlik müharibə də bir oyundur, düşmənlərin məhv edildiyi oyun:

**Çingiz:** Biz uşaqlarla döyüş-döyüş oynayırıq. Hamımızın silahı var, başımıza əsgərlər kimi papaq qoyuruq. Bizim əsgərlərimiz həmişə qalib gəlib düşməni məhv edir.

**Aparıcı:** Amma uşaqların ən sevimli əyləncəsi olan bu döyüşün də öz çətinlikləri var. Heç kəs düşmən olmaq istəmir. Döyüşdə iki tərəf olmalıdır. Uşaqların hamısı bizim əsgərimiz olmaq istəyir.Çox fikirləşiblər, hətta kömək üçün böyüklərə də müraciət ediblər, nəhayət çıxış yolu tapılıb:

"Hamımız növbə ilə düşmən oluruq. Yoxsa oynaya bilmərik. Bu döyüşdə indiyə qədər düşmən qalib gəlməyib, düşmənin qalib gələ biləcəyi heç uşaqların ağlından belə keçməyib. "Bizim əsgərlərimiz Qarabağda düşməni öldürür, biz də burda düşməni öldürürük - deyən Çingizin bir arzusu var. Vətən torpağını -Zəngilanı görmək. Onun üçün vətən hələlik həyətində "döyüş-döyüş" oynadığı yataqxananın həyətindən başlayır. Böyüklərindən heç görmədiyi Zəngilan adlı vətən torpağının varlığı barədə çox eşidib.

**Çingiz:** "Ermənilər bizim torpağımızı alıblar. Çoxlu adamları öldürüblər. Mənim

anamın iki dayısı da şəhid olub. Nənəmgilin evində onların şəkilləri var. Əyinlərində əsgər paltarı, əllərində də avtomat.

**Aparıcı:** Bu yerdə Çingiz gördüyünün doğruluğunu bir də bizdən dəqiqləşdirmək istəyir.

**Çingiz:** Xala, qoca kişidən əsgər olar? Dayılar qocadır, mən heç görməmişəm ki, qocalar əsgər getsin. Babam da qocadır, bəs o niyə əsgərliyə getmir? Mən əsgər getmək üçün qocalmağımı gözləməyəcəm: Böyüyən kimi əsgər gedəcəyəm. Anam da, nənəm də deyir ki, o vaxta qədər torpaqlarımıza qayıdarıq. Əsgərlərimiz erməniləri öldürər. Amma mən istəmirəm hamısını öldürsünlər. Bəs mən əsgər gedəndə düşmən öldürməyim?

**Aparıcı:** Ona elə gəlir ki, yataqxananın həyətində oynadığı "döyüş" oyunlarından düşmənə qalib gəlmək üçün kifayət qədər təcrübə toplayıb.Oyunlarda neçə düşməni, həm də necə öldürdüyündən danışır.Bircə ona təəssüflənir ki, doğruçu silah görməyib:

**Çingiz** "Görsəydim yaxşı olardı. Əsgər gedəndə görəcəyəm. Əsgərlərin hamısına yaxşı silah verirlər ki, vuruşanda düşmənə qalib gəlsinlər".

**Aparıcı:** Başqa bir həmsöhbətimiz - Seymur isə bizi "Əsgər marşı" ilə salamlayır. Ən çox seydiyi mahnıdır.

*Əsgər marşı səslənir Seymur əsgər marşını oxuyur.*

**Aparıcı:** Seymur da bu il məktəbə gedəcək. Bağçada da, evdə də Əsgər marşı mahnısı dilindən düşmür.

**Aparıcı**: Seymura qalsa elə bu gün döyüşə yollanar. Bizi inandırmağa çalışır ki, güclüdür. İdmana gedir, silahı da televizorda görüb, tanıyır, necə atılacağını bilir. Bircə onu bilmir ki, əsgər olmaq üçün niyə gözləməlidir.

**Seymur:** Onlar vətəni qoruyurlar, əgər əsgərlər olmasa ermənilər hamını məhv edər. Nənəm erməniləri görüb, anam da görüb, amma ən çox nənəm danışır. Deyir ki, ermənilər əllərində silah hamını qırırdılar. O vaxt əsgərlərimiz az idi, ermənilər çox. İndi bizim də əsgərlərimiz çoxdur. Ermənilər bizə heç nə edə bilməz. Bizim ordumuz hamıdan güclüdür, bilirsiz necə döyüşürlər? Mən də idmana gedirəm ki, güclü olum, əsgər gedəndə qorxmayım, düşmənlə vuruşum.

**Aparıcı:** Bircə onu bilirik ki,uşaq düşüncəsi ilə özünün də, bu Vətənin də Azərbaycan əsgərinə əmanət olduğunu anlayır. Və bir də Azərbaycan ordumuzun sayəsində əmanətimiz olan vətəni göz bəbəyi kimi qoruyacağına inanırlar. Bu inamı doğruldan Azərbaycan ordusuna eşq olsun!

Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir: “Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşır, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkədələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirib. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir. Yaxın keçmişin acı təcrübəsi bir də onu sübut etdi ki, müstəmləkə siyasətinə xidmət edən, əslində Azərbaycan xalqına müsibətlər gətirən beynəlmiləlçılık tərbiyəsi sən demə genosid planının və antitürk siyasətinin tərkib hissəsi imiş. Rus imperiyası işi qəsdən elə qurmuşdu ki, xalq öz soykökündən, qəhrəmanlıq tarixindən, adət-ənənələrindən uzaq düşsün. Respublikamızın ümumtəhsil, orta ixtisas və ali məktəblərində tədris olunan təbiət və cəmiyyət elmlərinin, humanitar fənlərin, ümumilikdə bütün fənlərin gənclərdə hərbi-vətənpərvərlik hissləri aşılamaq üçün çox böyük imkanları vardır. Gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsini o zaman daha yaxşı aşılamaq mümkündür ki, orta məktəbin X-XI siniflərində oxuyan şagirdlərə və alı məktəbdə təhsil alan tələbə-gənclərə ayrı-ayrı fənləri və ixtisas kurslarını tədris edərkən hərbi məzmunlu biliklər də verilsin. Keçmiş Sovetlər birliyi dövründə mövcud dərsliklərdə, dərs vəsaitlərində və metodik ədəbiyyatda hərbi-vətənpərvərlik hissləri aşılayan məlumatlar və hərbi məzmunlu biliklər məxfilik üzündən verilmirdi. Əslində bu şüurlu surətdə edilirdi ki, gənclər vətənpərvərlik duyğularından məhrum olsunlar, vətənin müdafiəsi üçün lazımi bilikləri almasınlar. Artıq bu gün müstəqil respublikamızın inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Uşaqların bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin, ümumilikdə mühitin rolu böyükdür. Uşaqlar bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət, insan, vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək, mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perespektiv işlərində iştirak edən, insan yetişdirmək deməkdir.İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil prosesində, əmək prosesində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərəkli fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətəndaşlıq tərbiyəsinin mənbəyi ailədir. Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi yalnız özbaşına axınla kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır.

Uşaqların vətənaşlıq tərbiyyəsi dedikdə, yüksək əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, savadlı olmağı, vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, vətəni sevməlidirlər. Uşaqlar ideyaca savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalı, pis niyyətlə, əliəyriliklərlə barışmamalıdır. Mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün uşaqlarda yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara-böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranış xüsusiyyətlərini uyğun qiymətləndirməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir. Böyük Atatürk deyirdi ki, sülh istəyən xalq hərbə hazır olmalıdır. Bu çox dəyərli kəlamdır. Azərbaycan xalqı müharibəni arzulamır, həmişə sülhün, əmin-amanlığın tərəfdarı olmuşdur. Hərbi –vətənpərvərlik tərbiyəsini sadəcə olaraq quru sözlərlə, nəsihətlərlə də məhdudlaşdırmaq olmaz. Bu sahədə məqsədəuyğun müvəffəqiyyət əldə etmək üçün məktəblərlə yanaşı kitabxana da hər şeydən əvvəl öz işini düzgün planlaşdırmalı, il ərzində görəcəyi işləri müəyyənləşdirməlidir. Burada tədbirlər arasında yaradılacaq əlaqə nəzərə alınmalı, işin təşkili əsaslandırılmalıdır. Oxucularla aparılacaq söhbətlər, keçiriləcək tədbirlər planlaşdırılmalıdır. Kitabxanada bu mövzuda söhbət, biblioqrafik xülasə, oxucu konfransı, ədəbi-bədii gecə keçirmək olar. Gənclərin hərbi vətənpərvərlik ruhunda böyüməsində ailə və məktəbin üzərinə düşən məsuliyyət, eyni zamanda kitabxanaya da aid edilə bilər. Biz Uşaq kitabxanasında çalışan kitabxanaçılar olaraq çalışmalıyıq ki, bu sahədə üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirək. Çünki, dünənin uşaqları bugünün əsgərləri, bu günün əsgərləri isə sabahın gələcəyidir**.**

Bu mövzu ilə bağlı aşağıdakı biblioqrafik siyahıdan istifadə edə bilərsiniz.


1. Sadıq F. Salam çadırdaşım; Marş; Azərbaycan əsgərinə : şeirlər // Azərbaycan harayı. – B.: Respublika Xatirə Kitabı Redaksiyası, 2002. – S.76-81.
2. Bayram T. Əsgər oğluma : şeir // Seçilmiş əsərləri. – B. : Lider, 2005. - S.62- 64.
3. Yaqub M. Bir əsgərin tanrı duası: şeirlər // Azərbaycan harayı. – Respublika Xatirə Kitabı Redaksiyası, 2002. – S.98-105.
4. Vəliyev İ. Əsgər andı // Azərbaycan harayı . – B. : Respublika Xatirə Kitabı Redaksiyası. – 2002. – S.189-192.
5. Davud . Əsgər şərqisi ; Bir əsgərin xitabı : // Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. – B.: Elm 2003. – S.189-193.

6. Qoca F. Əsgər məktubu : şeir // Seçilmiş əsərləri. – B. : 2004. – S. 119-120.
7. Qabil. Ümid sənədir ancaq...: şeir // Seçilmiş əsərləri. – B. : Şərq - Qərb, 2004. – S. 62-64.

***İstifadə edilmiş ədəbiyyat:***

1. **Görüryılmaz M.** Türk Qafqaz İslam ordusu və ermənilər (1918) : tarixi ədəbiyyat . - Bakı : 2008. - 408 s.
2. **Nəzirli Ş.** 1920-ci ildə Qarabağ döyüşləri 2009. - 480 s.
3. **Xəzər E.** Vuruşaq ki, zəfər çalaq : Şeirlər və poemalar - Bakı : Nərgiz, 2011. - 352 s.
5. **Şükürlü Q.** Atəş!!!. - Bakı : Maarif, 2008. - 232 s
6. **Nəbiyev V.** Hərbi – vətənpərvərlik işlərində keyfiyyət dəyişiklikləri günün tələbidir // Azərbaycan müəllimi. – 2007. – 22 iyun
7. **Rzalı R.** Ordu quruculuğunun çətin yolları // Azərbaycan müəllimi. – 2011. – 26 iyun
8. **Nəzərli T.** Qürurumuz, güvənc yerimiz //Azərbaycan. – 2011. – iyun
9. **Bayramov R.** Vətən keşiyində müzəffər ordu // Azərbaycan. – 2001. – 2 fevral
10. **Cəfərli R.** Güclü Azərbaycan Ordusu müstəqil dövlətçiliyimizin əsas təminatçısıdır // Azərbaycan. – 2009. – 26 iyun

**Redaktor: Şəhla Qəmbərova - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtib edəni: Nərgiz Məcidova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor: Məmmədli Ruhiyyə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri**